**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN FORMALAŞMASININ VƏ MÖHKƏMLƏNDİRİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5904.01 "Siyasi institutlar və sistemlər" |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **İbrahım Məmməd oğlu Babayev** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və Siyasi İdarəetmə" kafedrasında yerinə yetirilmişdir

| | |
|---|---|
| Elmi rəhbər: | Fəlsəfə elmləri doktoru, professor<br>**Nigar İbrahim qızı Ələkbərova** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |
| | Siyasi elmlər doktoru, professor<br>**İradə Tofiq qızı Nuriyeva** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Səyavuş Kamran oğlu Qasımov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: | Siyasi elmlər doktoru, dosent<br>**Sevil İmamverdi qızı Məmmədova** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir tarixi dövr və hadisə ictimai-siyasi həyatda səbəb olduğu maraqla və buraxdığı iz ilə yaddaşlarda qalır və həmin tarixi hadisəni yaşadan insanlar və onların xələfləri tərəfindən qiymətləndirilir. Zaman insanları həmin müəyyən hadisədən uzaqlaşdırdıqca, orada baş verən proseslər daha da aydın görünür və ilkin saf-çürük mərhələsindən sonra tədqiqat obyektinə çevrilir.

XX əsrin 90-cı illərinin əvvəllərində dünyanın siyasi xəritəsində tez-tez təkrarlanmayan mühüm dəyişikliklər baş vermişdi. Bu dəyişikliklərin mərkəzində SSRİ və dünya sosializm sisteminin dağılması hadisəsi dururdu. SSRİ-nin dağılması ilə dünyanın dövlətlər siyahısına 15 yeni müstəqil dövlət daxil olmuşdur.

Bu dövlətlərdən biri də Azərbaycan Respublikasıdır. Tarixdə oxşar hadisələr çox nadir hallarda baş versə də, bunun bir neçəsi Azərbaycan xalqının payına düşmüşdü. Belə ki, 1917-ci ildə Rusiya imperiyası parçalandığı zaman Azərbaycan xalqı öz müstəqilliyini qazanmış və bu müstəqillik yollarında mübarizənin böyük bir hissəsini erməni sindromu ilə mübarizəyə həsr etmişdi. 1990-cı illərin əvvəllərində SSRİ dağıldıqdan sonra digər keçmiş müttəfiq respublikalarla yanaşı Azərbaycan da öz müstəqilliyini elan etmiş, lakin elə ilk gündən yenidən həmin erməni problemi ilə üzləşməli olmuşdur. Bu problem yeni müstəqil dövlətin uğurlu inkişafı yolunda ən böyük maneəyə çevrilmişdi. Nəhayət, bir-neçə hakimiyyət dəyişikliyindən sonra, SSRİ dövründə Azərbaycana rəhbərlik etmiş və Moskvada SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinədək yüksələrək zəngin dövlətçilik təcrübəsi qazanan Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin sükanı arxasına keçir. Beləliklə, müasir Azərbaycan dövlətçiliyinin formalaşması prosesi başlanır.

Tədqiqat mövzusunun aktuallığını konkret olaraq aşağıdakı tezislərlə ifadə etmək olar:

1. XX əsrin sonlarına doğru Azərbaycan xalqının həyatında yeni tarixi dövrün başlanğıcını qoyan dövlət müstəqilliyinin, müstəqil milli dövlətçiliyin bərpa edilməsi problemi müasir Aərbaycan siyasi elmi üçün ən aktual məsələlərdən biridir. Bir sıra elmi ədəbiyyatlarda XX

əsrin sonlarında Azərbaycan xalqının milli müstəqilliyinə nail olması SSRİ-nin dağılması ilə onun qismətinə düşən "pay" və ya "bəxşiş" kimi qələmə verilsə də, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi 80-ci illərin axırlarından başlanan milli oyanış və milli-azadlıq hərəkatının tarixi-siyasi nəticəsinin olmasını çox dəqiq tarixi faktlarla təsdiq edilməsi mümkündür.

2. Bəhs etdiyimiz və tədqiqinə çalışdığımız mövzunun aktuallığı məhz elə buradan başlanmışdır. Çünki, hər hansı yolla əldə edilmiş müstəqilliyin qorunub saxlanması adətən onun əldə edilməsindən çox çətin olur. Belə ki, SSRİ-nin faktiki olaraq dağılmasından əvvəl, 1991-ci il oktyabrın 18-də milli-azadlıq mübarizəsinin yekunu olaraq "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" nın qəbul edilməsindən sonra hakimiyyəti əllərində cəmləşdirən "sabiq kommunistlər"in qətiyyətsizliyi, yeni siyasi qüvvəni formalaşdıra bilməməsi, 1992-ci ilin mayında isə hakimiyyətdə AXC-nin səriştəsiz siyasəti nəticəsində müstəqil dövlətçiliyin formalaşdırılmasına mane olan çoxlu sayda problemlər yaranmışdı. Hakimiyyət uğrunda gedən çəkişmələr, digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqların bir qisminin işğal olunması, yüzminlərlə ölkə vətəndaşının öz Vətənində məcburi köçkün vəziyyətinə düşməsi problemləri daha da dərinləşdirmiş, ictimai-siyasi vəziyyəti gərginləşdirmişdi.

3. Belə bir mürəkkəb şəraitdə-1993-cü ilin iyun ayında Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikasının dövlət müstəqilliyinin formalaşdırılmasında yeni mərhələ başlanır. Bir çox çətinliklərə baxmayaraq, Ulu öndər Heydər Əliyev xalqı vətəndaş qarşıdurmasından, dövlət çevrilişi cəhdlərindən, müstəqilliyi itirmək təhlükəsindən xilas etdi. Həmin dövrdən Azərbaycan Respublikasının müstəqilliyi formalaşmağa və möhkəmlənməyə başladı. Bütövlükdə, ümummilli mənafeyi ifadə edən siyasi strategiyanın və onun qərarlaşmasının Heydər Əliyev konsepsiyasında dövlətçilik ideyası xüsusi yer tuturdu. Ümummilli liderimiz demişdir: "Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini

möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır". Məhz bu nöqteyi-nəzərdən baxdıqda müasir Azərbaycan dövlətçiliyinin yaranması, formalaşması və inkişafı məsələlərinin dərindən araşdırılması istiqamətində yeni elmi araşdırmaların aparılması Azərbaycanın siyasi elmi üçün xüsusi diqqət kəsb edən, ən aktual məsələlərindən biri olduğunu görürük.

4. Müasir mərhələdə Heydər Əliyev dövlətçilik kursunun layiqli və uğurlu davamçısı, uzaqgörən və praqmatik siyasətçi İlham Əliyevin prezidentliyi dövrünün ilk illərindən həyata keçirilən kompleks islahatların nəticəsində iqtisadi sahədə keçid dövrünün başa çatması ilə ölkə inkişafının yeni keyfiyyət mərhələsi başlanır. Bu mərhələdə dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasətin əsas resursalrı qismində dayanan faktorlar çoxşaxəliliyi ilə xarakterizə olunur. Müstəqil dövlətçiliyin möhkəmləndirilməsinin yeni prioritetlərinin təşəkkülü, cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni sahələrində sürətli, dinamik və dayanıqlı inkişaf, qeyri-neft sektorunun hərtərəfli yüksəlişi dövlətçiliyimizin müasir mərhələsini səciyyələndirən başlıca cəhətlərdir. Bu mərhələdə müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda, xaricdə olduqca çox mühüm milli taleyüklü uğurların əldə edilməsi böyük önəm daşıyır. Bu uğurların əsasında, təbii ki, hərtərəfli düşünülmüş, düzgün və çevik dövlətçilik siyasəti durur.

5. Müstəqil dövlət quruculuğu mərhələsində olan ölkələrdə, o cümlədən, Azərbaycanda hüquqi, demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu problemi praktiki aspektdə, ümumilikdə cəmiyyət, nəzəri baxımdan yanaşdıqda isə ictimai və humanitar elmlər üçün mühüm tədqiqat obyekti rolunu oynayır. Tədqiq etdiyimiz mövzunun bugünki aktuallığı da əsasən bundan ibarətdir.

Problemin işlənmə dərəcəsi bu sahədəki mövcud elmi ədəbiyyatın qruplaşdırılması əsasında təhlil edilmişdir. Bu baxımdan ilk öncə Ümummilli Lider Heydər Əliyevin və onun layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqlərindən, bəyanat, müsahibələrindən ibarət olan "Müstəqilliyimiz əbədidir" və "İnkişaf məqsədimizdir" çoxcildlikləri xüsusi olaraq qeyd etmək lazımdır. Göstərilən fundamental əsərlərdə müstəqil

Azərbaycan dövlətçiliyinin formalaşdırılması və möhkəmləndirilməsinə dair dəyərli, böyük praktik əhəmiyyət kəsb edən konseptual fikir və müddəalar irəli sürülmüşdür.[1]

Azərbaycan alimləri U.K.Ələkbərovun, Ə.Z.Abdullayevin, H.K.Hüseynovanın, A.H.Naxçıvanlının, Hikmət Babaoğlunun, Y.M.Mahmudovun, İ.M.Hüseynovanın, E.X.Nəsirovun, F.T.Məmmədovun, Elşad Mirbəşir oğlunun, F.R.Ağamalının, S.İ.Məmmədovanın, Z.Z.Həbibovanın, E.İ.Əhmədovun, M.İ.Yusifovun və b. əsərlərində müasir Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsində, ölkəmizdə səmərəli dövlət idarəçiliyində Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oynadığı başlıca rolu açılıb göstərilmiş, fenomenal liderliyi geniş şərh olunmuşdur.

U.K.Ələkbərovun "Heydər Əliyev ideyaları: inkişafın uğurlu təməli kimi", Y.M.Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", Hicran Hüseynovanın "Zaman və Şəxsiyyət" kitabında, Ə.Z.Abdullayev və E.Ə.Nəcəfovun "Azərbaycançılıq ideyasının inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu", Hikmət Baboğlunun "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri", E.X.Nəsirovun "Heydər Əliyevin milli intibah missiyası və onun yeni mərhələsi", İ.M.Hüseynovanın "Müstəqilliyimizin təminatçısı" adlı əsərlərində və b. müstəqil Azərbaycan dövlətçiliyinin formalaşması və inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu geniş şərh olunmuşdur.[2]

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 46 cilddə, 1997-2016; Əliyev İ.H. İnkişaf məqsədimizdir. Bakı: Azərnəşr, 139 cilddə, 2009-2025.

[2] Ələkbərov U.K. Heydər Əliyev ideyaları: inkişafın uğurlu təməli // Heydər Əliyev və yeni cəmiyyət modeli. Bakı: 2014, s. 145-153; Ələkbərov U.K. Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycan Respublikasının davamlı inklüziv inkişafı // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı (xüsusi buraxılış ). 2023, № 2(82), s.27- 32; Abdullayev Ə., Nəcəfov E. Azərbaycançılıq ideyasının inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə. 2013, № 2 (jurnalın xüsusi buraxılışı). - s. 65-74; Hüseynova, H.K. Heydər Əliyev və dövlət qadın siyasəti // Respublika 2023. 5. may, №92. səh.12; Naxçıvanlı A. Şəxsiyyətin qüdrəti / A.Naxçıvanlı. Bakı: – Yazıçı, – 2012, 325 s.; Hikmət Babaoğlu. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri.Bakı, MSA,2013. 456 s.; Nəsirov E.X. Heydər Əliyevin milli intibah missiyası və onun yeni mərhələsi // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə. - 2013.

Azərbaycan dövlətçiliyinin yaranması və formalaşmasından özünün" Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri" adlı əsərində bəhs edən İ.Z.İsmayılov da tarixi müqayisələrlə öz elmi baxışlarını problemin araşdırılmasına yönəltmişdir. Müəllif əsas elmi baxışlarını Heydər Əliyevin Azərbaycanın siyasi həyatında rolundan, onun zəngin dövlətçilik təcrübəsindən bəhs etməyə yönəltmişdir. Eyni fikirlər M.Quliyevin "Heydər Əliyev siyasi irsi milli ideologiyanın inkişafına xidmət edir" adlı məqaləsində əks olunmuşdur. Müəllifin gəldiyi qənaətə görə, milli dövlətçiliyimizin formalaşmasının bünövrəsini məhz Ulu öndər Heydər Əliyev qoymuşdur.[3]

Beləliklə, müstəqil Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsində Ümummilli liderimizin böyük rolu müxtəlif aspektlərdən açılıb göstərilir, respublikamızın daha sonrakı uğurlu inkişafı Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlanır. Bu fikirlər F.R.Ağamalının "Dövlətçiliyimizin İlham Əliyev mərhələsi" kitabında, K.Adıgözəlovun "XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı" adlı məqaləsində və b. tutarlı dəlillərlə təsdiqlənmişdir. [4]

İ.M.Cəfərov "Azərbaycan Respublikasının Konstitusiyası dövlətçiliyimizin inkişafının əsas prioritetlərindən biri" adlı məqaləsində Azərbaycan dövlətçiliyinin ən mühüm təminatçılarından olan Konstitutsiyamızın geniş şərhini vermişdir. R.Ə.Mehdiyevin "XXI əsrdə milli dövlətçilik", "Azərbaycanın inkişaf dialektikası" və digər əsərlərində dövlətçiliyimizin inkişafı ilə bağlı məsələlər şərh olunmuşdur. E.X.Nəsirov "Azərbaycan nefti və beynəlxalq müqavilələr" adlı əsərində Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində neft amilinin xüsusi mövqeyindən bəhs etmiş

---

- № 2 (jurnalın xüsusi buraxılışı). - s. 83-92; Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı (Məqalələr, çıxışlar, rəylər... ). Bakı: Təhsil, 2003, 504 s.

[3] İsmayilov İ. Z. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri. Bakı: Təhsil, 1998, 216 s. ; Quliyev M. Heydər Əliyev siyasi irsi milli ideologiyanın inkişafına xidmət edir. // "Azərbaycan" qəz., Bakı: 2010, 28 aprel.

[4] Ağamalı F. Dövlətçiliyimizin İlham Əliyev mərhələsi. Bakı, OSKAR NPM, 2005, 304 s.; K.Adıgözəlov "XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı// https://1news.az/az/news/20191225022124286

və dəyərli elmi nəticələr əldə etmişdir. S.İ.Məmmədovanın "Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyasında ictimai-siyasi sabitlik amili" məqaləsində dövlətçiliyimizin möhkəmlənməsi və inkişafında əsas amillərdən biri kimi ictimai - siyasi sabitliyin rolu açılıb göstərilmişdir. E.İ.Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü" əsərində müstəqil dövlətçiliyimizin inkişafında böyük maneə olan erməni separatizmi geniş şərh olunmuşdur.[5]

Azərbaycanın milli dövlətçilyinin formalaşması və möhkəmləndirilməsinin əsas prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və elmi təhlil süzgəcindən keçirilməsi həmçinin digər ölkələrin tədqiqatçılarının da diqqətini cəlb etmişdir. Bu baxımdan Türkiyə tədqiqatçıları Mehmet Dikkaya və Adem Çolakın birgə yazdıqları "Heydər Əliyev dövründə Azərbaycanın iqtisadi və siyasi transformasiyası: imkanlar və problemlər" adlı məqalə xüsusi maraq doğurur. [6]

Onlardan Türkiyə alimləri Genenç Leventin "Azərbaycan Konstitusiyasına dair Qeydlər", Köksal Şahinin "Azərbaycan yönümlü demokratiyaya əsaslanan bir təhlil", Aras Nurinin "Azərbaycan iqtisadiyyatı və transformasiya prosesi", İpek Pınarın "Azərbaycanın xarici siyasəti və enerji təhlükəsizliyi ilə bağlı çağırışlar" adlı məqalələrini qeyd etmək olar.[7] Rusiya

---

[5] Cəfərov İ.M. "Azərbaycan Respublikası Konstitusiyasının şərhi". Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2010, 724 s.; Mehdiyev R.Ə. Azərbaycanın inkişaf dialektikası. Bakı: Azərbaycan MEN,. 2000; Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI –Yeni Nəşrlər Evi,. 2003; Nəsirov E.X. Azərbaycan Respublikasının Avropanın enerji təhlükəsizliyində yeri və rolu // "Geostrategiya", 2011, №4(04), s.36-39; S.İ.Məmmədova.Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyasında ictimai-siyasi sabitlik amili// Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı (xüsusi buraxılış ). 2023, № 2(82), s..173-190; Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika: 1987-2011. Bakı, Letterpress, 2012, 912 s.

[6] Mehmet Dikkaya və Adem Çolak. Haydar Aliyev döneminde Azerbaycanın ekonomik ve politik dönüşümü: firsatlar ve sorunlar // OAKA . 2008, Cilt: 3, Sayı: 5, s. 131-157.

[7] Gönenç Levent (1998), "Azerbaycan Anayasası Üzerine Notlar", Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi, Cilt 47, Sayı 14, ss.185-219; Aras, O. Nuri, "Azerbaycan Ekonomisi ve Dönüşüm Süreci", Akademik Araştırmalar Dergisi, Sayı: 19, 2003-2004; Köksal Şahin. Azerbaycan'a yönelik demokrasi eksenli bir

tədqiqatçılarından A.Nurşa özünün "Xəzəryanı region: bölgənin strateji əhəmiyyəti və neft" adlı məqaləsində SSRİ-nin dağılmasından sonra adı çəkilən regionda Azərbaycan Respublikasının üstün mövqeyindən bəhs etmişdir. Digər tədqiqatçı V.Şoroxov isə, "Azərbaycanın enerji ehtiyatları" adlı məqaləsində məsələyə birbaşa toxunaraq, ölkəmizi Qafqaz regionunda ən potensial gücə malik olan dövlət kimi qiymətləndirmişdir. Müəllifin qənaətinə görə Azərbaycanın zəngin enerji ehtiyatları dövlətçiliyimizin möhkəmlənməsində əsas prioritet istiqamətlərdən biridir[8].

Beləliklə, müasir Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsi problematikası müxtəlif aspektlərdən araşdırılsa da, bu sahədəki elmi ədəbiyyatın təhlili əsasında vurğulamaq olar ki, təqdim olunan dissertasiyadakı qoyuluşda problem Azərbaycan siyasi elmi çərçivəsində sistemli şəkildə öyrənilməmişdir. Bu da həmin dissertasiya tədqiqatının mövcud boşluğun aradan qaldırılmasında müəyyən cəhdin olduğunu göstərir.

**Tədqiqatın obyekti və predmeti.** Müasir Azərbaycan dövlətçiliyinin formalaşmasının və möhkəmləndirilməsinin prioritet istiqamətləri tədqiqatın obyektini təşkil edir. **Predmetini** isə müstəqillik əldə etdiyi vaxtdan, dövlətçiliyin formalaşdırılması və möhkəmləndirilməsi yolunda, həmin dövrdən meydana çıxan çətinlikləri və bu problemlərə qarşı həyata keçirilən siyasət mexanizmləri və vasitələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsinin prioritet istiqamətlərinin, milli-demokratik dövlət quruculuğu prosesinin inkişaf xüsusiyyətlərinin, problemə sistemli yanaşma əsasında tədqiq edilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı məsələlərin elmi-nəzəri araşdırılması konkret vəzifələr kimi qarşıya qoyulmuşdur:

---

analiz // 2013, Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi Sayı: 38, Eylül – Ekim 2013; Ipek P. Azerbaijan's foreign policy and challenges for energy security // The Middle East Journal, 2009, Vol. 63, No. 2, pp. 227-239.

[8] Нурша А. Прикаспийский регион: стратегическое значение пространства и нефти. // Центральная Азия и Кавказ, 2001, № 2. с. 47-55; Шорохов В. Энергоресурсы Азербайджана: Политическая стабильность и региональные отношения. //http://poli. vub. ac. be/publi/crs/caucasus/shorokhov. html.

-müasir Azərbaycan dövlətçiliyinin formalaşmasını şərtləndirən tarixi-siyasi amillərin kompleks təhlilini vermək;

-müstəqil Azərbaycan dövlətçiliyinin inkişaf mərhələlərini izləmək, səciyyəvi cəhətlərini göstərmək istiqamətində siyasi sistemin transformasiyası mərhələsində və ondan sonrakı dönəmdə müasir dövlət quruculuğunun spesifik və ümumi inkişaf xüsusiyyətlərini nəzərdən keçirmək, bu prosesin ayrı-ayrı ünsürlərinin xüsusiyyətlərini öyrənmək, onların ümumi sistemdəki funksiyalarını araşdırmaq;

-demokratikləşmə proseslərinin ictimai-siyasi sistemin keyfiyyətcə tamamilə yeni əsaslarla təşəkkülünə təsir meyillərini öyrənmək, bu istiqamətdə Konstitusiyanın rolunu nəzərdən keçirmək;

-müstəqil dövlət quruculuğu prosesində "Müdrik Lider" fenomenin yeri və rolunun siyasi baxımdan təhlilini vermək;

-yeni neft strategiyasının və enerji siyasətinin dövlət müstəqilliyinin möhkəmləndirilməsində, ölkə iqtisadiyyatının yeni-bazar münasibətləri əsasında inkişafında və dünya iqtisadiyyatına inteqrasiyasında, Azərbaycanın dünya dövlətləri birliyində etibarlı strateji tərəfdaş kimi imicinin formalaşmasındakı əhəmiyyətini göstərmək;

-Azərbaycanın neft strategiyasının dünyanın ən mürəkkəb geosiyasi məkanında yerləşən Xəzər hövzəsinin müasir dünya nizamında formalaşan yeni qlobal güc mərkəzinə çevrilməsində yeri və rolunun konkret faktoloji materiallar əsasında araşdırmaq;

-müstəqil Azərbaycanın milli maraqlrına xidmət edən balanslı siyasətinin əhəmiyyətini xarakterizə edən amilləri tədqiq etmək;

-müasir mərhələdə Prezident Ilham Əliyevin güclü Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi prioritetləri və inkişaf perspektivlərinin təhlilini vermək.

Sadalananlar bir daha göstərir ki, iki əsrin qovşağında meydana çıxan demokratikləşmə ənənələri, milli müstəqil dövlət vahidlərinin yaranması ictimai elmlərin qarşısında yeni vəzifələr qoymuşdur. O cümlədən, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğunun nəzəri məsələlərinin tədqiqi istiqamətində nəzərəçarpacaq elmi tədqiqat işləri vardır. Eyni zamanda vurğulamaq zəruridir ki, bu qəbildən olan proseslərin ümumnəzəri təhlilində hələ də həllini gözləyən vəzifələr qalmaqdadır. Bu baxımdan qeyd olunan istiqamətdə ümumelmi

səylərin birləşdirilməsi məqsədəuyğun olardı.

**Tədqiqat metodları.** Dissertasiya tədqiqatının nəzəri-metodoloji əsasını Ümummilli Lider Heydər Əliyevin ideya-siyasi irsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin problemlə bağlı irəli sürdüyü konseptual müddəalar təşkil edir.

Tədqiqatda sistemli yanaşma əsasında analiz və sintez, induksiya və deduksiya kimi ümummәntiqi metodlardan, müqayisəli-tarixi, instutisional, müqayisəli politoloji təhlil, kontent-analiz və digər elmi araşdırma metodlarından istifadə edilmiş, zəruri tədqiqat metodları əsas elmi müddəaları düzgün müəyyən etməyə əsas yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- müasir Azərbaycan dövlətçiliyinin bərpa edilməsini yaranmış tarixi-siyasi şərait şərtləndirmişdir;

-müstəqil Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsi Ulu öndər Heydər Əliyevin müdrik liderliyi, zəngin və titanik dövlətçilik fəaliyyəti ilə bağlıdır;

-müstəqil və demokratik dövlət quruculuğunda Konstitusiya prioritet kimi qəbul edilmişdir;

-uğurlu enerji siyasətini həyata keçirməsi Azərbaycanı regionun güc mərkəzinə çevirmişdir;

-Prezident İlham Əliyevin sürətli sosial-iqtisadi inkişaf strategiyasının uğurla reallaşması güclü Azərbaycan dövlətinin inkişafı və möhkəmləndirilməsinin dayanıqlı əsasını yaratmışdır;

-Prezident İlham Əliyevin Azərbaycanda müstəqil dövlət quruculuğu strategiyasında yeni prioritetlər müəyyən olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi mövzunun seçimi, problemin qoyuluşu, işin məqsəd və vəzifələri ilə şərtlənir. Mövzu ilk dəfə olaraq dissertasiya tədqiqatı səviyyəsində müstəqil təhlil obyekti kimi seçilir, onun əhatə etdiyi məsələlər ilkin mənbələr, müasir elmi əsərlər əsasında müəyyən istiqamətlər üzrə kompleks şəkildə tədqiq edilir.

Dissertasiya işinin başlıca yenilikləri aşağıdakılardır:

-müstəqil Azərbaycan dövlətçiliyinin formalaşmasının və möhkəmləndirilməsinin prioritet istiqamətləri ilk dəfə olaraq kompleks şəkildə müəyyənləşdirilmiş və sistemli yanaşma əsasında

təhlil edilmişdir;

- müstəqil dövlətçiliyin formalaşması və inkişafında liderlik konsepsiyaları təhlil edilmiş, bu kontekstdə Ulu öndər Heydər Əliyev fenomeninin unikallığı əsaslandırılmışdır;

-güclü Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində müdrik liderliyin layiqli varislik prinsipinin reallaşması ilə davam etməsi və bunun uğurlu nəticələri arqumentli şəkildə açılıb göstərilmişdir;

-Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsində dövlətimizin həyata keçirdiyi neft strategiyası və enerji siyasətinin rolu araşdırılmış, onların reallaşmasında əldə olunan böyük nailiyyətlər açılıb göstərilmişdir;

- ölkə prezidenti tərəfindən müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinin yeni dövr üçün müəyyənləşdirdiyi prioritetlərə sistemli baxış əsasında gələcək inkişaf perspektivləri politoloji təhlil əsasında proqnozlaşdırılmışdır.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin materialları bu istiqamətdə perspektivdə yerinə yetiriləcək tədqiqatlar üçün zəmin ola bilər. Tədqiq olunan mövzunun aktual olduğu üçün gələcəkdə bu mövzu ilə bağlı elmi-tədqiqat işlərində təqdim olunan dissertasiya layiqli mənbə və ədəbiyyat rolunu oynaya bilər. Nə qədər ki, müstəqil dövlətçiliyimizin inkişafında Heydər Əliyev konsepsiyasının tətbiqi davam edir bu dissertasiyada araşdırılan problem də həmişə gələcək tədqiqatçıların diqqət mərkəzində olacaqdır.

Tədqiqatın nəticələrindən siyasi proseslərin təhlilində və qiymətləndirilməsində, ictimai-siyasi elmlərə dair metodoloji vəsaitlərin tərtib edilməsində,mühazirə materiallarının hazırlanmasında, həmçinin praktik qərarların qəbul edilməsində istifadə oluna bilər, müvafiq dövlət orqanlarının fəaliyyəti üçün faydalı olar.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və Siyasi İdarəetmə" kafedrasında yerinə yetirilmiş və müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir. Müəllif bu mövzu ilə bağlı muxtəlif mənbə və ədəbiyyat üzərində uzun

müddət tədqiqat aparmış,dissertasiya işinin başlıca müddəaları ilə bağlı Beynəlxalq və Respublika miqyaslı elmi konfranslarda müasir Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsinin prioritet istiqamətlərinə həsr olunmuş çıxışlar etmiş, məqalələr və konfrans materialları dərc etdirmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Tədqiqat işi Azərbaycan Respubklikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu:** Dissertasiya işi giriş (17851 işarə), iki fəsil (I fəsil – 104114 işarə, II fəsil - 134862 işarə), altı yarımfəsildən, nəticə (11611 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ədəbiyyat siyahısı istisna olmaqla, ümumi həcmi 268438 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri-praktiki əhəmiyyəti müəyyənləşdirilir, tədqiqatın mənbəşünaslıq bazası, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **“Müasir Azərbaycan dövlətçiliyinin təşəkkülünün və inkişaf əsaslarının yaradılması”** adlı birinci fəslinin ***“Müasir Azərbaycan Respublikasının yaranmasını şərtləndirən tarixi-siyasi amillər”*** adlanan birinci yarımfəslində göstərilir ki, müasir Azərbaycan Respublikasının yaranması çox uzun bir tarixi proses keçmişdir. Xalqımızın öz dövlətçilik ənənələrinə yenidən qovuşmaq uğrunda apardığı mübarizə XX əsrin əvvəllərindən keyfiyyətcə yeni dövrə daxil olur. Nəhayət 1918-ci ilin mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən istiqlal bəyannaməsi qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə müstəqil milli-demokratik dövlət quruculuğu sahəsində olduqca mühüm və önəmli tədbirlər həyata keçirildi. Azərbaycanın ilk parlamentinin və hökumətinin, idarəçilik orqanlarının təsis olunması, Azərbaycan dilinin dövlət dili elan edilməsi və s. ən başlıca uğurlardan idi. Həm də Azərbaycan xalqının xarici aləmə müstəqil təsir imkanları yaranırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra onun məhz bünövrəsi üzərində Azərbaycan SSR yaradıldı. SSRİ tərkibində mövcud olan bu qurum tarixşünaslıqda II Respublika kimi qiymətləndirilmişdir. Azərbaycan SSR nə qədər SSRİ tərkibində müstəqil olmasa da, onun bütün dövlət strukturları fəaliyyət göstərir, bir növ Mərkəzin rəhbərliyi ilə öz dövlətçiliyini qoruyub saxlamaqla bərabər, onu inkişaf etdirirdi. Azərbaycanlı mütəxəssislər dövlət və siyasət məsələlərini dərindən mənimsəyirdilər. Sovet dövrü Azərbaycanın dövlətçilik uğurları əsasən belə əsaslı məsələlərdən ibarət idi. Eyni zamanda Azərbaycan təhsili, elmi, ümumiyyətlə, mədəniyyəti II Respublika dövründə xeyli inkişaf etmişdi.

XX əsrin sonunda Azərbaycan xalqı yenidən azad, müstəqil milli dövlətçiliyinə nail oldu. Siyasətşünaslıqda isə bu məsələyə münasibət heç də birmənalı deyildir. Bu yarımfəsildə müasir Azərbaycan Respublikasının yaranmasında, Azərbaycan xalqının istiqlaliyyətinə qovuşması amilləri təhlil edilmişdir: Sovet İttifaqının dağılması, Azərbaycan xalqının mübarizliyi, Azərbaycan SSR dövründə Azərbaycanın milli dövlətçilik kadrlarının yetişməsi və s. 1969-1982-ci illərdə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdən xalqımızın həyatında köklü dönüşün baş verməsi daha aydın və ətraflı göstərilmişdir. Nəhayət, Azərbaycan Respublikasının yaranması ilə müstəqil milli dövlətçilik tariximizdə keyfiyyətcə yeni dövrün əsasının qoyulması fikri əsas ana ideyanı təşkil etmişdir.

Birinci fəslin "***Azərbaycanın müstəqil dövlət quruculuğunda müdrik Heydər Əliyev liderliyi fenomeni***" adlı ikinci yarımfəslində göstərilir ki, güclü və demokratik dövlətçilikdə ən mühüm və həm də başlıca olan məsələlərdən biri də lider amili məsələsidir. Bu məsələ cəmiyyətin siyasi sisteminin transformasiyası və modernləşdirilməsi dönəmində xüsusilə böyük önəm kəsb edir.

Bu yarımfəsildə, liderliyin müxtəlif nəzəriyyələrinin müqayisəli təhlili əsasında müstəqil Azərbaycanda milli-demokratik dövlət quruculuğunda lider amilinin nəzərdən keçirilməsi spesifikliyi ilə seçilməsi qənaətinə gəlinmişdir. Burada göstərilir ki, Heydər Əliyev fenomeni taleyin Azərbaycan xalqına bəxş etdiyi böyük bir xoşbəxtlik olmuşdur. Dahi şəxsiyyət Azərbaycan xalqı üçün, hər bir azərbaycanlı üçün böyük qürur və iftixar mənbəyidir. Xalqımız öz əvəzsiz liderinin qədrini həmişə yaxşı bilmiş, onu layiqincə qiymətləndirmişdir.

Bu paraqrafda qeyd olunmuşdur ki, milli ideologiyamız məhz o illərdə yaradılmışdır ki, həmin illərdə Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtmışdır. O dövrdən iqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılırdı. Heydər Əliyevin milli müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsi amalı üzərində qurulan siyasi konsepsiyası özünün dərin optimizmi ilə olduqca önəmli və ibrətamizdir.

Burada göstərilir ki, məhz bu yenilməz birlik sayəsində Azərbaycanın müstəqilliyinin yenidən itirilməsi və parçalanması

təhlükəsinin vaxtında qarşısının alınması, milli qurtuluşa nail olunması ilə bərabər, ölkədə yeni dövlət quruculuğunun milli inkişaf və tərəqqinin sarsılmaz təməli qoyuldu. Müstəqil milli-demokratik dövlətçiliyin ümdə amili kimi, bərqərar olmasında əsası fenomen lider Heydər Əliyev tərəfindən qoyulmuş hakimiyyət – xalq birliyi idi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Sosial-siyasi kamillik, yüksək intellekt, mahir natiqlik, zəngin dövlətçilik təcrübəsi, iti təfəkkür tərzi, dərin təhlil bacarığı, müdriklik, peşəkarlıq, uzaqgörənlik, şəxsi nüfuz, qətiyyət və cəsarət kimi ali keyfiyyətlərə malik olan müdrik lider Heydər Əliyev 1993-2003-cü illərdə vaxtilə təhlükəli vəziyyətdən xilas etdiyi Azərbaycanı tərəqqi yoluna çıxardı, dünya dövlətlər birliyinə qovuşdurdu, ona etibarlı nüfuz və mövqe qazandırdı.

Dissertasiyanın birinci fəslinin “***Müasir Azərbaycan dövlət quruculuğunun Konstitusiya əsasları və onların reallaşması uğurları”*** adlı üçüncü yarımfəslində göstərilir ki, 1995-ci ilin noyabrın 12-də referendrum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunan “demokratik”, “hüquqi”, “dünyəvi” kimi anlayışlar bir dövlət quruculuğu və idarəçiliyi sistemi olaraq müasir Azərbaycan dövlətçiliyinin xarakterik xüsusiyyətlərini, səciyyəvi cəhətlərini ifadə edir. Bu dövlətçilik, öz fəaliyyətində demokratiya, sosial ədalət, hüququn aliliyi, vətəndaşların dilindən, irqindən və dünyabaxışlarından asılı olmayaraq bərabərlik prinsiplərinə əsaslanır.

Qeyd olunur ki, tarixi təcrübədən bəlli olduğu kimi, hüquqi əsas və başlıca tənzimləyici amili olmaq baxımından Konstitusiya dövlətçilikdə mühüm önəm və məna kəsb edir. Konstitusiyanın dövlət quruculuğunda yeri və rolu postsovet təcrübəsində xüsusilə özünəməxsus şəkil alımışdır. Bu əvvəlki sistemin tamamilə transformasiya olunması ilə yanaşı mövcud beynəlxalq münasibətlər sisteminin də tamamilə yeniləşməsi və qlobal çağırışlarla şərtlənmişdir.

Konstitusiyanın ali hüquqi statusda olması onun hakimiyyətin mənbəyinin xalq olması müddəasına istinad etməsi ilə şərtlənir. Yarımfəsildə dünya ölkələri konstitusiyaları ilə müqayisələr aparılmışdır. Müəyyən olunmuşdur ki, Konstitusiyanın cəmiyyətdə rolu onun funksiyalarında təzahür edir. O, əsasən üç funksiyanı həyata keçirir: siyasi funksiya, hüquqi funksiya və humanist funksiya.

Siyasi funksiya, hər şeydən əvvəl, siyasi müxtəlifliyin, çoxpartiyalılığın və ideoloji plüralizmin formalaşmasını və tanınmasını təsbit edir. Hüquqi funksiyanın mahiyyəti ondan ibarətdir ki, o, Konstitusiyanı cəmiyyətin hüquq sisteminin təməli kimi tanıyır və müxtəlif hüquq sahələri üzrə əsas hüquqi müddəaları müəyyən edir. Humanist funksiya Konstitusiyanın bütün vəzifələrini özündə əks etdirir. Bu isə o deməkdir ki, Konstitusiyada ümumbəşəri dəyərlər və sivil cəmiyyət üçün xarakterik olan hüquq və azadlıqların möhkəmləndirilməsi təcəssüm olunur.

Konstitusiyanın ali hüquqi qüvvəsi və cəmiyyət həyatındakı yerinə və roluna dair müxtəlif tədqiqatçıların fikirləri bu yarımfəsildə geniş təhlil edilmişdir. Göstərilmişdir ki, Konstitusiya normaları digər normalara münasibətdə prioritetdir və qanunlar, digər qanun qüvvəli aktlar konstitusiyada müəyyən edilən qayda və prosedura uyğun qəbul edilir.

Yarımfəsildə bir daha belə bir yekun fikir söylənmişdir ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, möhkəmləndirmək onun gələcək inkişaf yolunu müəyyən etmək amalı ilə qəbul edilən, demokratik və dünya standartlarına cavab verən, maddələrin üçdə birinin insan-vətəndaş hüquq və azadlıqlarına həsr olunan ölkə Konstitusiyası vətəndaş cəmiyyətinin bərqərar olmasının mötəbər təminatıdır. Konstitusiya dövlətin hüquq sistemində spesifik təyinata və funksiyalara malik dövlət quruluşunu, dövlət hakimiyyəti orqanının təşkili və fəaliyyətinin prinsiplərini, vətəndaşların əsas hüquqlarını, azadlıqlarını və vəzifələrini müəyyən edir, qanunvericiliyin əsasını təşkil edir.

Tədqiqat işinin "**Müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi prioritetləri və inkişaf perspektivləri**" adlanır. Bu fəslin ***"Müsəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi siyasətinin başlıca istiqamətləri*** **və əsas**

**amilləri"** adlanan birinci yarımfəslində göstərilir ki, 1991-ci ilin oktyabrın 18-də Azərbaycan Resbublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə müasir milli dövlətçiliyimizin yaranmasının hüquqi cəhətdən tarixi başlanğıcı qoyulur. Bu dövlətçiliyin faktiki olaraq formalaşması və inkişafı 1993-cü ilin ortalarında Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra başlanır.

Bu yarımfəsildə qeyd olunmuşdur ki, ötən əsrin sonunda Azərbaycan öz dövlət müstəqilliyini bərpa edərkən, əsrin əvvəllərində olduğu kimi, bir çox ağır taleyüklü problemlərlə üzləşir, ölkənin yeni geosiyası situasiyasının diktəsi ilə qarşılaşmalı olduğu ciddi siyasi, sosial-iqtisadi və idarəçilik problemləri daha da kəskin xarakter alır. Müstəqilliyin ilk vaxtlarında idarəetmə işindəki qeyri-müəyyənlik, təcrübəsizlik və səriştəsizlik, digər tərəfdən də Ermənistanın torpaqlarımızı işğal etmək, Dağlıq Qarabağa sahib olmaq niyyətilə başladığı müharibə ölkəni olduqca ağır bir duruma salır. Ölkəni və xalqı yaranmış olan belə bir ağır vəziyyətdən 1993-cü ilin iyununda xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev çıxardı fikri bu yarımfəslin ana ideyasını təşkil edir. Burada qeyd olunmuşdur ki, müstəqilliyinin bərqərar olması naminə özünün potensial imkanlarını gerçəkləşdirməkdən ötrü Azərbaycan bəhs edilən dövrdə ağır və çətin bir yol keçməli olur. Tarixin təcrübəsi göstərir ki, müstəqilliyin qorunub saxlanması onun əldə edilməsindən daha çətindir.

Göstərilmişdir ki, milli müstəqilliyimizin, müasir milli dövlətçiliyimizin bərqərar olmasında Ümummilli Lider Heydər Əliyevin 1993-cü il müraciətlərinin bir istiqamətverici əsas proqram kimi müstəsna yeri və rolu vardır. Bu müraciətlərdə Heydər Əliyev müstəqilliyinə yenicə nail olmuş Azərbaycanda yaranmış ictimai-siyasi situasiyanın və onu doğuran səbəblərin təhlilini verməklə yanaşı mövcud vəziyyətdən qurtulmağın yolunu göstərmiş, müstəqil Azərbaycanın müqəddəratı üçün mühüm həyati önəm olan başlıca fikirlərini bildirmişdir.

Dissertasiyanın ikinci fəslinin "***Azərbaycanın enerji siyasəti və regionda güc mərkəzinə çevrilməsi"*** adlı ikinci yarımfəslində göstərilir ki, 1994-cü ilin sentyabrın 20-də Azərbaycanda böyük bir tarixi hadisə baş verdi. Respublika Dövlət Neft Şirkətinin xarici

ölkələrin böyük neft şirkətləri ilə üç ildən artıq davam edən danışıqları sona çatdı. Nəhayət, bu danışıqlar əsasında Azərbaycan Respublikası üçün münasib olan müqavilənin layihəsi əldə edildi. Azərbaycan Dövlət Neft Şirkəti dünyanın yeddi böyük şirkətinin daxil olduğu konsorsium ilə müqavilə bağladı. Həmin şirkətlər ABŞ, Böyük Britaniya, Rusiya, Norveç və Türkiyəyə məxsusdur, sonradan Səudiyyə Ərəbistanının "Delta" neft şirkəti də onlara qoşulub. Bu konsorsium Azərbaycan Dövlət Neft Şirkəti ilə 30 il müddətinə müqavilə imzaladılar.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə istismarına dair dünyanın peşəkar iri şirkətləri ilə böyük strateji əhəmiyyətli sazişin imzalanması, Azərbaycanın tam müstəqil olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdirdi. Xəzər dənizinin Azərbaycan sektorundakı şelfdə üç neft yatağından Azərbaycanın payına 253 milyon tonun düşməsi şərti ilə, 30 il müddətində 511 milyon ton neftin birgə çıxarılması, nəqli və pay bölgüsü barədə yeddi dövlətə (Azərbaycan, Türkiyə, ABŞ, Böyük Britaniya, Rusiya, İsveç, Səudiyyə Ərəbistanı) mənsub on bir təcrübəli neft şirkəti arasında kontraktın imzalanması və bunun əsasında müstəqil Azərbaycanın neft strategiyasının reallaşması böyük tarixi-siyasi, regional və qlobal önəmli mühüm məna daşıyır.

Milli neft strategiyasının müstəqil dövlətçiliyimizin möhkəmlənməsi və inkişafında, o cümlədən Xəzər bölgəsinin yeni qlobal güc mərkəzinə çevrilməsində yeri və rolu müstəsna əhəmiyyətə malik olmuşdur. "Əsrin müqaviləsi"nin gerçəkləşməsinin ilkin mühüm nəticələrindən biri kimi Azərbaycanın Xəzər sektorundakı "Çıraq-1" yatağından neftin hasilatına başlanılan günü – 1997-ci il noyabrın 12-sini Böyük Britaniyanın Xarici İşlər Naziri Derik Feçetti müstəqil Azərbaycanın tarixi müvəffəqiyyəti, onun "qarşıdakı çoxsaylı uğurlarının başlanğıcı" kimi qiymətləndirmişdir.

Azərbaycanın malik olduğu zəngin neft və qaz sərvətlərini ölkənin bugünki və gələcək inkişafı, onun dövlət müstəqilliyinin möhkəmlənməsi, xalqın yaxşı yaşaması üçün ən əsas amillərdən idi. Neft strategiyasının uğurları Azərbaycanın iqtisadiyyatına investisiyaların qoyulması üçün etibarlı təminat yaratmışdır. Bu

uğurlar Azərbaycanın neft sənayesinin dinamik, sürətli inkişafı ilə yanaşı, iqtisadiyyatın digər sahələrinin də dirçəlməsi üçün əsas oldu. Azərbaycana dünyanın müxtəlif ölkələri ilə geniş ticarət əlaqələri quraraq güclü ticarət tərəfdaşına çevrilmək, eyni zamanda onlarla sərbəst texnologiyalar, ideyalar və s. mübadiləsi etmək imkanını verdi.

Neft strategiyasının həyata keçirilməsi yönümündə Azərbaycan qapısını dünya iqtisadiyyatına açmaqla, özünün də iqtisadiyyatının sivil bazar münasibətləri əsasında inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiyası, xarici ölkələrə neft və qazın ixracı üçün geniş imkanlar əldə etmiş oldu.

Azərbaycanın Xəzər hövzəsinin əsas faktoru qismində rolu və funksiyaları isə Qərb-Şərq, Avropa və Asiya və sair sivilizasiyalararası rəqabət mühitində yeniliklərə məruz qalır. Başqa sözlə, regionun unikallığı, toqquşan güclərin maraqları Azərbaycan üçün yeni manevr imkanları açır. Bu imkanlar çərçivəsində dövlətçiliyin möhkəmləndirilməsi prioritetlərinin təmini isə başlıca meyara çevrilir.

Dissertasiyanın ikinci fəslinin "***Müasir mərhələdə Prezident İlham Əliyevin güclü Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi siyasəti yeni hədəflər kontekstində***" adlanan üçüncü yarımfəslində göstərilir ki, Prezident İlham Əliyev müasir mərhələdə müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsinin başlıca amilləri və prioritetlərini özünün mükəmməl və proqram xarakterli fəaliyyətində göstərmişdir. İlham Əliyevin keçid dövrünün başa çatması haqqındakı bəyanatı siyasi müstəqilliyimiz qədər mühüm əhəmiyyət kəsb edən bir məsələdir. Belə ki, iqtisadi cəhətdən ölkə müstəqil olmasa, siyasi müstəqillikdən əsla danışmağa dəyməz.

Azərbaycanın neft, qaz, dəmiryolu şəbəkələri ilə yanaşı tranzit əhəmiyyətini artıran daha bir amil, Cənubi Qafqazın ən böyük infrastruktur layihələrindən olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksidir. Bu liman tranzit qovşağı kimi mövcud nəqliyyat şəbəkələrinin diversifikasiyasını təmin edir.

Azərbaycan Respublikası Şərq-Qərb enerji dəhlizinin geniş fəaliyyətini təmin etmək üçün regionda nəqliyyatın digər növünün də inkişafına nail olmaq üçün 2006-cı ilin sonunda növbəti addım atıb. Bu da Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi layihəsidir. 850

kilometr uzunluğunda olan dəmiryolu xətti Türkiyəni Qafqaz dəmiryolu magistralı ilə birləşdirəcək. Qars-Axalkalaki marşrutu faktiki olaraq Cənubi Qafqazla Avropanı ən qısa yolla birləşdirən dəmir yolu xəttidir. Asiyadan Avropaya istiqamətlənmiş bu iri layihələrin hamısı mənbəyini Azərbaycandan götürür. 2017-ci il oktyabrın 30-da bu layihə artıq reallığa çevrilmişdir. Bakı-Tbilisi-Qars yolunun ümumi uzunluğu 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

Yarımfəsildə göstərilir ki, hazırda ölkəmiz çoxşaxəli ixrac marşrutlarının, o cümlədən Aralıq, Qara və Baltik dənizləri akvatoriyalarını əhatə edən layihələrin müəllifidir. Bu da öz növbəsində Azərbaycanın yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Mərkəzi Avropa və Balkanların siyasətinə təsir edəcək mexanizmlərə malik olmasına şərait yaradır.

Burada qeyd edilir ki, işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkünlərin geri qaytarılması və ərazi bütövlüyünün təmin olunması məqsədilə Prezident İlham Əliyev ardıcıl siyasət həyata keçirir. Azərbaycan beynəlxalq hüququn müstəqil subyekti kimi milli maraq və mənafeyini təmin etmişdir. Azərbaycan balanslı diplomatiyası ilə Cənubi Qafqaz və Xəzər bölgəsində toqquşan maraqları bir araya gətirərək müxtəlif təşklatlar, eləcə də ayrı-ayrı dövlətlərlə münasibətlərdə bərabərhüquqlu partnyor imici qazanmaqdadır.

Ölkənin iqtisadi və geopolitik təhlükəsizliyinin qorunmasını nəzərdə tutan orijinal təklifləri İlham Əliyevin təkamülə əsaslanan islahatçı baxışlarını ehtiva edir. Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Respublikada əsas vəzifələrdən biri qeyri-neft məhsulları ixracının artırılmasıdır. Bunu etmək üçün kənd təsərrüfatının ənənəvi sahələri inkişaf etməlidir.

Güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan - Prezident İlham Əliyevin böyük uğurla həyata keçirdiyi strateji siyasətin əsas hədəfi belədir. Bu hədəfin məğzində isə milli inkişaf və tərəqqi, müstəqilliyin daimi və əbədi olması məramı durur. Beləliklə, belə qənaətə gəlmək olar ki, müasir Azərbaycan dövlətçiliyinin iqtisadi

əsaslarının möhkəmləndirilməsi Prezident İlham Əliyevin ümummilli inkişaf konsepsiyasının əsas hədəflərindəndir.

Nəhayət, 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması nəticəsində Azərbaycan müasir tarixdə ilk dəfə olaraq qardaş Türkiyə olan strateji tərəfdaş və rəsmi müttəfiq tapdı. Qoşulmama siyasəti sayəsində Azərbaycan əvvəllər heç bir hərbi-siyasi blokun üzvü olmayıb və Cənubi Qafqazdakı bəzi qonşularından fərqli olaraq heç bir rəsmi müttəfiqi olmamışdır. Beləliklə, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan və Türkiyəni ilk dəfə olaraq bloklara qoşulmayan müttəfiqlər etdi və iki türk dövlətinin sonrakı inteqrasiyası və qarşılıqlı əməkdaşlığı üçün əsas rolunu oynadı ki, bu da digər ölkələrə nümunə ola bilər.

Bundan əlavə, tərəflər Qarabağda birgə yenidənqurma və tikinti layihələrinin həyata keçirilməsi ilə bağlı müxtəlif məsələləri müzakirə ediblər. İmzalanma mərasimindən sonra çıxış edən ölkə Prezidenti İlham Əliyev bu günü böyük tarixi hadisə adlandırmışdır. Bəyannamənin imzalanması iki qonşu dövlət arasında münasibətləri ən yüksək səviyyəyə qaldırır və gələcəkdə "qlobal miqyasda ən yaxın ölkələrin" birliyinə təminat verir.

Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan-2030" sosial-iqtisadi inkişafın Milli Prioritetləri təsdiq edilmişdir. Sənəddə növbəti onillik üçün beş əsas prioritet sahə müəyyənləşdirilmişdir:

- davamlı inkişaf edən rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik, inklüziv və sosial ədalətli cəmiyyət;
- rəqabət qabiliyyətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad edilmiş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsi.

Bütün bu sahələr, təbii ki, bir-biri ilə bağlıdır. Azərbaycanın Baş Naziri Əli Əsədov "Azərbaycan 2030-cu il üçün sosial-iqtisadi inkişafın milli prioritetlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Prezidentinin sərəncamının icrasını təmin etmək məqsədi ilə artıq sənəd imzalamışdır.

2024-cü ilin noyabr ayında Bakıda keçirilmiş COP29 ekoloji problemlərin həlli üçün birlikdə mühüm addımların atılacağı böyük qlobal forum oldu. Bu tədbir, Azərbaycanın aktual ekoloji problemləri

həll etmək və davamlı həll yolları tapmağa dair digər ölkələrlə işləmək üçün böyük imkanları olduğunu bir daha sübut etdi.

Azərbaycan mühüm qlobal konfransa ev sahibliyi, onun beynəlxalq nüfuzunu və ekoloji gündəliyə sadiqliyini nümayiş etdirir və bununla da dünya səhnəsində fəal və nüfuzlu oyunçu kimi rolunu gücləndirir. COP29-un Bakıda keçirilməsi ilə bağlı dünya ölkələri tərəfindən bir neçə gün ərzində qəbul edilmiş qərar beynəlxalq aləmdə Azərbaycana olan dərin etimadın və hörmətin sübutudur. Bu, ölkənin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş statusunu təsdiqləyir. Prezident İlham Əliyevin rəhbərliyi ölkənin COP29-da ətraf mühitin dayanıqlılığı üçün vacib olan müzakirələrin və tədbirlərin irəliləyişində əsas rol oynamağa sadiqliyini təsdiq edir.

Nəticədə, aparılan tədqiqata yekun vurularaq, ümumiləşdirilmələr əsasında praktik xarakterli tövsiyə və təkliflər irəli sürülmüşdür.

İlk növbədə, əldə olunan ümumi qənaət ondan ibarətdir ki, Ulu öndərimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan müstəqilliyini çətin, ağır yollardan keçərək qazanmışdır. Odur ki, müstəqil Azərbaycan dövlətinin qorunub–saxlanılması, möhkəmləndirilməsi, güclü və qüdrətli dövlət kimi daha da inkişaf etdirilməsi xalqımız və cəmiyyətimiz üçün dərin başlıca amal olmalıdır.

İkincisi, Azərbaycanda müstəqil dövlət quruculuğunda müdrik Heydər Əliyev liderliyi fenomeninin daha geniş araşdırılması və xüsusi əhəmiyyətini milli mənafelər prizmasından təşviq edilməsi işi ardıcıl aparılmalıdır.

Üçüncüsü, dissertasiya çərçivəsində aparılan tədqiqat əsasında müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi siyasətinin kompleks şəkildə araşdırlması bu siyasətin səmərəliliyinin daha da artırılmasına imkan verər.

Dördüncüsü, müasir Azərbaycanın uğurlu enerji siyasəti dünya dövlətləri üçün də nümunə olmaqla,bu sahədə regional səviyyədə əməkdaşlığın daha da inkişaf etdirilməsi və istiqamətlərinin genişləndirilməsinə xidmət edir.

Beşincisi, Prezident İlham Əliyevin güclü Azərbaycan dövlətçiliyinin inkişafına dair müəyyən etdiyi yeni hədəflərin uğurla

reallaşmasında əldə olunacaq böyük nailiyyətlərin ölkənin gələcək davamlı inkişaf perspektivlərinin proqnozlaşdırılmasında nəzərə alınması səmərəli olar.

**Dissertasiyanın məzmunu müəllifin bir sıra çap olunmuş elmi məqalələrində də öz əksini tapmışdır:**

1. "Avropaya inteqrasiya: müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu". "Heydər Əliyevin zəngin siyasi, mənəvi irsi ümummilli sərvətimizdir" mövzusunda aspirant və dissertantların elmi konfransının tezisləri, Bakı, 2004, Çaşıoğlu, s.150-153.
2. "Azərbaycan Respublikasının yaradılması və onun inkişaf xüsusiyyətləri" // "XXI əsrdə Azərbaycan Respublikasının sosial, iqtisadi və siyasi inkişafının aktual problemləri" mövzusunda aspirant və dissertantların V elmim konfransının materialları, Bakı, 2006, s.78-85.
3. "Азербайджан и Россия: взаимосвязи стран и роль туризма в их развитии" // Научные исследования в сфере туризма. Труды Международной Туристской Академии. Москва, 2010, s.117-121.
4. "Silkway and Heydar Aliyev. The new integration opportunities of Azerbaijan in the historical route" // «Туризм в современном мире: направления и тенденции развития» Материалы IV Всероссийской научно-практической конференции с международным участием, посвященной 10-летию кафедры «Социально-культурный сервис и туризм». Хабаровск, 28-29 mart 2013, s.343-345.
5. "Формирование и развитие современной Азербайджанской Государственности" // Информационная среда и ее особенности на современном этапе развития мировой цивилизации. Материалы V международной научно-практической конференции. Saratov, 2 dekabr 2014, s.7-9.
6. "Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" // Azərbaycan Xalq Cümhuriyyərtinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, 21-23 may 2018, s.1101-1103.
7. "Azərbaycan Respublikasının neft strategiyası və dövlət müstəqilliyinin möhkəmləndirilməsi" / Tarix, insan və cəmiyyət /

elmi-nəzəri və elmi-metodik jurnal, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2019, №4(27), s.113-123.

8. "Dövlət müstəqilliyimizin möhkəmləndirilməsində Heydər Əliyev fenomeni" // "Geostrategiya" jurnalı/ Bakı, 2024, №4(82), s.31-37
9. "The role of the national oil strategy in the strengthening and development of independent statehood". Південноукраїнський національний педагогічний університет імені К.Д.Ушинського "Політичні проблеми міжнародних систем та глобального розвитку" політикус Науковий журнал. Ukrayna, 2024, №2, s.123-128
10. "Azərbaycan Respublikasının Konstitusiyası Demokratik dövlət quruculuğunun təməl prinsipi kimi" // Geostrategiya jurnalı. Bakı, 2025, №1 (85). Səh.32-37



Dissertasiyanın müdafiəsi "29" may. 2025-ci il saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD.2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "26" aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.12.2025
Kağızın formatı: A5
Həcm: 40022 işarə
Tiraj: 100